*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 21 dekabr 2016-cı il № 99 (2114) Qiyməti 25 qəpik


## Türkiyə Respublikasının Prezidenti zati-aliləri cənab Rəcəb Tayyib Ərdoğana

Hörmətli cənab Prezident,
Əziz Qardaşım.

Kayseridə törədilmiş amansız terror aktı nəticəsində türk əsgərlərinin şəhid olması və yaralanması xəbəri bizi son dərəcə kədərləndirdi.

Biz bu qanlı hadisəni lənətləyir, dəhşətli bəlaya çevrilmiş terrorizmə qarşı mübarizənizdə Sizi dəstəkləyir və daim qardaş Türkiyənin yanındayıq.

Baş vermiş bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyirəm.

Allah rəhmət eləsin!

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, 17 dekabr 2016-cı il.

## Azərbaycan Respublikasının Müdafiə naziri Türkiyə tərəfinə başsağlığı verib

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Türkiyənin Kayseri şəhərində hərbi qulluqçuları daşıyan avtobusun partladılması nəticəsində həlak olan və yaralananlarla bağlı Türkiyə Respublikasının Milli Müdafiə naziri cənab Fikri İşıka və Türkiyə Respublikasının Baş Qərargah rəisi ordu generalı Hulusi Akara başsağlığı ünvanlayıb.

Başsağlığında bildirilir: "Qardaş Türkiyə Respublikasının Kayseri şəhərində baş vermiş xain terror aktı nəticəsində hərbi qulluqçuların və mülki şəxslərin həlak olması və xəsarət alması haqqında xəbər məni dərindən kədərləndirdi.

Biz bu dəhşətli hadisədən çox hiddətlənir, terrorizmi qətiyyətlə pisləyirik.

Terrora qarşı aparılan kəskin mübarizədə daima qardaş Türkiyə Silahlı Qüvvələrinin yanındayıq və var gücümüzlə dəstəkləyirik.

Həlak olanlara rəhmət diləyir, onların yaxınlarının dərdlərinə şərik olur, ailələrinə dərin hüznlə başsağlığı verirəm. Bütün yaralılara Tanrıdan şəfa diləyirəm.

Allah rəhmət eləsin."

Bakı, 17 dekabr 2016-cı il.

*Ön xətdən reportaj*

# Cəsur döyüşçülər



*Hər dəfə cəbhə bölgəsinə gedəndə əsgərdən tutmuş zabitə qədər döyüşçülərimizin hər birilə qürur hissi keçirmişəm. Yayın bürküsündə, qışın soyuğunda, gecə-gündüz demədən Vətən oğulları torpaqlarımızı səngər-səngər qoruyur, hərbi xidmətin bütün çətinliklərinə mərdliklə sinə gərir, Azərbaycan döyüşçüsü adını uca tuturlar. Bu dəfə də ön mövqelərdə zabit və əsgərlərimizlə ünsiyyətdən aldığım təəssürat köksümü iftixar hissilə doldurdu.*

Baş leytenant Niyət Şirəliyevlə Vətən oğullarının döyüş növbəsi apardığı postlarda tanış olduq. Biz həmin mövqelərə yaxınlaşanda baş leytenant şux yerişilə gəlib zabit Taleh Balabəyova məruzə etdi. Döyüş növbəsi apardıqları mövqelərdə fövqəladə bir hadisənin baş vermədiyini bildirdi.

- Baş leytenant Niyət Şirəliyev budur, - mənimlə ön mövqelərə gələn zabit Balabəyov dedi.

Ön xəttə gəlməzdən əvvəl taborun qərargahında zabit Namiq Aslanovla görüşüb söhbət etdik. Bu mövqelərdə vəziyyət barədə məlumat aldıq.

- Bizim şəxsi heyət qarşımıza qoyulmuş tapşırıqları yerinə yetirməklə məşğuldur, - zabit söylədi. - Əsgərlərimiz düşmənlə təmas şəraitində döyüş növbəsində ayıq-sayıq dayanırlar. Onların xidməti yüksək səviyyədə aparması üçün ordu rəhbərliyi tərəfindən bütün lazımi şərait yaradılıb. Növbədən qayıtmış döyüşçülərin normal istirahəti təşkil olunur. Hər an zabit və əsgərlərimiz Ali Baş Komandanın döyüş əmrini gözləyir.

**(Ardı 3-cü səhifədə)**

# Müdafiə naziri ABŞ-ın Nəqliyyat komandanı ilə görüşüb

*Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan ABŞ-ın Nəqliyyat komandanı general Darren MakDyunun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.*



Müdafiə naziri qonaqları salamlayaraq regiondakı hərbi-siyasi vəziyyət, Ermənistanın işğalçılıq siyasətinin davam etməsi, son zamanlar cəbhə bölgəsində baş verən atəşkəs rejiminin pozulması hallarının artması və bu təxribatların erməni silahlı bölmələri tərəfindən törədilməsi barədə onlara ətraflı məlumat verib.

Bölgədə nüvə təhlükəsizliyinin gücləndirilməsi məsələsinə də toxunan general-polkovnik Zakir Həsənov vurğulayıb ki, bu, təkcə region üçün deyil, həm də dünya üçün ciddi bir problemdir.

Azərbaycan ilə ABŞ arasında əməkdaşlığın müxtəlif istiqamətləri üzrə əldə edilmiş müsbət nəticələrdən danışan general-polkovnik Zakir Həsənov qarşılıqlı əlaqələrin genişlənməsindən məmnunluğunu ifadə edib.

Azərbaycan Silahlı Qüvvələrinin Əfqanıstandakı Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələrinə verdiyi töhfəyə görə minnətdarlığını bildirən ABŞ-ın Nəqliyyat komandanı da ölkələrimiz arasında səmərəli hərbi əməkdaşlığı yüksək qiymətləndirib.

Tərəflər ikitərəfli əməkdaşlığa dair bir sıra digər məsələləri də müzakirə ediblər.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti,
foto
Natiq İSAYEVİNDİR**

# Silahlı Qüvvələrdə "Açıq qapı" günü keçiriləcək

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin göstərişinə və Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi tədbirlər planına uyğun olaraq, dekabrın 30-da saat 11.00-da 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə bütün hərbi hissələrdə əsgər valideynləri və yaxınları üçün "Açıq qapı" günü keçiriləcək.

Həmin gün ziyarətçilər, ictimaiyyət, kütləvi informasiya vasitələrinin nümayəndələri hərbi hissələrdə yaradılan yaşayış və məişət şəraiti ilə yaxından tanış olacaq, xidməti, inzibati binalara, əsgər yataqxanaları və yeməkxanalarına baş çəkəcək, eləcə də qonaqlar üçün müxtəlif döyüş texnikaları və silahların nümayişi təşkil olunacaqdır.

Hərbi hissələrdə Silahlı Qüvvələrin bütün rəhbər heyətinin iştirakı ilə keçiriləcək "Açıq qapı" günündə valideynlərlə görüşlər təşkil olunacaq, onları maraqlandıran bütün məsələlərin müzakirəsi aparılacaq, konsert proqramları və digər mədəni-kütləvi tədbirlər keçiriləcəkdir.

# Azərbaycan və Ermənistan dövlət sərhədində növbəti monitorinq keçiriləcək

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, dekabrın 21-də Qazax rayonu istiqamətində Azərbaycanın Ermənistan ilə dövlət sərhədində növbəti monitorinqin keçirilməsi planlaşdırılır.

Monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Jiri Aberle və Saymon Tiller keçirəcəklər.

Ermənistan tərəfindən isə monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Gennadi Petrika, Xristo Xristov və Piter Şvedberq keçirəcəklər.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# Silahlı Qüvvələrin rəhbər heyəti ilə üçgünlük toplantı keçirilir

*Azərbaycan Respublikası Silahlı Qüvvələrinin bütün rəhbər heyətinin iştirakı ilə üçgünlük toplantı keçirilir.*



Müdafiə nazirinin müavinlərinin, Silahlı Qüvvələrin növləri və qoşun qisimləri komandanlarının, nazirliyin baş idarə, idarə və xidmət rəislərinin, birlik və birləşmə komandirlərinin, qərargah rəislərinin və digər məsul zabitlərin iştirakı ilə keçirilən toplantıda Müdafiə naziri general-polkovnik Zakir Həsənov çıxış edib.

Nazir Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin Silahlı Qüvvələrin fəaliyyətinə verdiyi yüksək qiyməti və ordu qarşısında qoyduğu tapşırıqları diqqətə çatdırıb, aparılan fəaliyyətlər və əsas istiqamətlər üzrə yerinə yetirilən vəzifələri bir daha xüsusi vurğulayıb.

Toplantıya qatılan heyət təlim mərkəzində və çöl-səhra şəraitində təşkil olunan hazırlıq məntəqələri və nöqtələrində nəzəri və praktiki məşqlərdə iştirak edir.

İştirakçılardan ümumqoşun nizamnamələri, rəhbəredici və digər normativ sənədlərlə bağlı biliklər üzrə məqbullar qəbul edilib, şəxsi heyətin fiziki hazırlığının səviyyəsi yoxlanılıb.

Silahlı Qüvvələrin rəhbər heyətinin döyüş hazırlığının, bacarıq və qabiliyyətlərinin yoxlanılması məqsədilə silahlanmada olan zirehli texnikanın ştat silahından və atıcı silahlardan atışlar icra olunur, generallar və zabitlər müxtəlif növ tırtıllı və təkərli döyüş maşınlarının, avtomobil texnikasının idarə edilməsi üzrə yoxlama tapşırıqları yerinə yetirirlər.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti,
fotolar
Natiq İSAYEVİNDİR**





# Cəsur döyüşçülər



(Əvvəli 1-ci səhifədə)

Bacarıqlı zabit və əsgərlər barədə söhbət açdıqda həmsöhbətim baş leytenant Niyət Şirəliyevin də adını çəkdi və onun barəsində xoş sözlər söylədi. Bölük komandirini savadlı, işini bilən, döyüş növbətçiliyini yüksək səviyyədə təşkil etmiş bir zabit kimi xarakterizə etdi. Ona görə həmin bölməyə getmək qərarına gəldik. Elə görüşdüyümüz ilk anlardan baş leytenant Şirəliyev barəsində xoş təəssüratım yarandı.



- Qonşuluğumuzda bir zabit yaşayırdı, - bölük komandiri baş leytenant Niyət Şirəliyev bizimlə söhbətində dedi. - Ona hərbi geyim çox yaraşırdı. Həm də zabit paqonları daşıdığına görə çox qürurlu görünürdü. Uşaq qəlbimdə ona böyük rəğbət yaranmışdı. Onun əynində hərbi geyimi gördüyüm vaxtdan hərbçi olmaq arzusundaydım. Həyat elə gətirdi ki, həqiqətən, hərbçi oldum.

Niyət orta məktəbi bitirdikdən sonra ali hərbi təhsil almaq məqsədilə sənədlərini böyük öndər Heydər Əliyevin adını daşıyan Azərbaycan Ali Hərbi Məktəbinə təqdim edir. İmtahanlarda yüksək nəticə qazanan şamaxılı gənc hərbi təhsil ocağının birinci kursuna qəbul edilir. O zaman Niyətin sevincinin həddi-hüdudu yox idi, yəni uşaqlıq vaxtlarından arzuladığı məqsədinə çatmışdı. Kursant adını qazanmaq onun valideynlərini də xeyli şad etmişdi.

Bölük komandiri Şamaxı rayonunun Ovçulu kəndindəndir. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini beş il öncə bitirib. Silahlı Qüvvələrdə xidmətinə taqım komandiri kimi başlayan gənc leytenant nümunəvi davranışı, şəxsi intizamı ilə döyüşçülərinə örnək olmağı bacarıb. Zabit kimi komandanlığın diqqətini cəlb edən Şirəliyev bir müddət öncə bölük komandiri vəzifəsinə təyin edilib.

- Hesab edirəm ki, bütün peşələrin içində hərbçi peşəsi daha şərəflidir, - zabit Şirəliyev vurğulayır. - Vətəni qorumaqdan, ana-bacılarımızın, övladlarımızın əmin-amanlığının keşiyində dayanmaqdan qürurlu bir sənət tanımıram. Bu fikirləri hər zaman öz döyüşçülərimizə də aşılamağa çalışıram.

Niyətgili, ümumiyyətlə, hərbçilər ailəsi adlandırmaq olar. Dörd qardaşın dördü də hərbi xidmətdədir. Ailənin daha iki oğlu hərbçi peşəsini seçib və gələcəyin zabiti olmaq üçün təhsil alır. Ailənin sonuncu oğlu isə Silahlı Qüvvələrimizdə Vətənə əsgəri borcunu verməkdədir.

Təbii ki, bir ailədə oğul övladların əksəriyyətinin zabit peşəsini seçməsi təsadüf ola bilməz. Bunda valideyn tərbiyəsini, İmran Şirəliyevin övladlarına vətənpərvərlik duyğuları aşılamasını qeyd etməmək olmaz. Məhz belə ailələr millətin onurğa sütununu təşkil edir və öz konkret əməllərilə Vətəni şərəfləndirirlər.

Bölük komandiri tabeliyindəki gizir və əsgərlərlə birlikdə onlara tapşırılmış mövqeləri düşməndən qoruyurlar.

Göylərin üzünü boz buludlar örtsə də, hava soyuq olsa da, o gün yağıntı yox idi. Bölmənin qarşısında əsgəri səliqə-sahman yaradılmışdı. Postlara çıxmağa hazırlaşan döyüşçülər bir cərgə düzülərək bölük komandirinin təlimatına hazır vəziyyətdə dayanmışdı. Zabit Şirəliyev onlara məsləhətlərini verdikdən sonra birlikdə postlara qalxdıq.

- Döyüşçülərimiz öz postlarında möhkəm dayanıblar və düşmən mövqelərini daim nəzarətdə saxlayırlar, - baş leytenant Şirəliyev boyumuzdan xeyli yuxarı olan tərtəmiz eləqə yolu ilə səngərlərə qalxarkən dedi. - Bu yerlərin keşiyini çəkmək bizə həvalə edilib. Cəsur oğulların sayəsində öz mövqelərimizi məsuliyyət hissilə, göz bəbəyi kimi qoruyuruq. Döyüşçülərimiz yaxşı başa düşürlər ki, qarşıdakı ərazilər də Azərbaycan torpaqlarıdır. Sabah həmin Vətən torpaqlarının azad edilməsi barədə əmr alsaq, hamı kimi biz də coşqu ilə irəliyə atılmağa hazırıq.

Ön xətdə də sakitlik idi. Səngərlər döyüşçülər tərəfindən sanki silinib süpürülmüşdü. Əsgərlərimizi düşmənin güllə və mərmilərindən qoruyan üstüörtülü müşahidə məntəqələrində dəbilqəli, zirehli gödəkcə geyinmiş əsgərlərin bütün diqqəti düşmən mövqelərində idi.

- İndi burada hələlik sakitlikdir, - əsgər Asif İsazadə deyir. - Amma hərdənbir düşmən mövqelərimizi atəşə tutur. Biz qarşıda baş verən hər bir hadisə barədə qeydlər edib komandirlərimizə məlumat veririk. Erməni əsgərləri atəşkəsi pozduqda onları susmağa məcbur edirik.

Asif Qəbələ rayonundan 8 ay öncə hərbi xidmətə çağırılıb. Gənc əsgər kursunu bitirdikdən sonra ixtisas hazırlığına yiyələnib. Öz peşəsini mükəmməl mənimsədikdən sonra postlarda döyüş növbəsinə buraxılıb.

Onun silahdaşı Oruc Azayev isə əslən Kürdəmir rayonunun Yenikənd kəndindəndir. Oruc artıq xidmətinin bir ilini arxada qoyub. O da öz postunda düşmən mövqelərini bir an da olsun nəzarətdən qoymur.

- Döyüş postunda durmaq üçün komandirlərimiz həmişə bizi təlimatlandırırlar, - kürdəmirli əsgər söyləyir. - Adam silahına əmin olanda, necə vuruşmağı öyrəndikdə daha inamlı olur. Mən komandirlərimlə fəxr edirəm. Onlar bu inamı bizdə yaradıblar və hər çətinlikdən çıxmağı bizə öyrədirlər.

- Döyüşçülərimizin, gördüyünüz kimi, mənəvi-psixoloji hazırlığı, döyüş ruhu yüksəkdir, - leytenant Ziya Kərimli söhbətə qoşulur. - Əsgərlərimiz həvəslə öz vəzifə borclarını yerinə yetirirlər. Hər post, hər səngər Vətənimizin bir parçasıdır və onu göz bəbəyi kimi qorumağı döyüşçülərimiz yaxşı dərk edirlər.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu",**
**fotolar müəllifindir**

# Əsgərlərimiz mənəvi-psixoloji cəhətdən də hazırlıqlıdırlar

*Silahlı Qüvvələrdə mənəvi-psixoloji hazırlıq işi daim diqqət mərkəzindədir. Müdafiə Nazirliyinin tabeliyində olan hərbi hissələrdə hərbi psixoloq sisteminin fəaliyyəti müasir səviyyədə qurulub. Psixoloji iş hərbi qulluqçuların hərbi xidmətə çağırıldığı gündən ehtiyata buraxılanadək planlı şəkildə və davamlı olaraq həyata keçirilir.*



"N" hərbi hissəsində ictimai-siyasi hazırlıq dərsinin gedişi ilə maraqlanıram. Şəxsi heyətlə iş üzrə bölmənin psixoloqu kapitan Bəhruz Qafarov proqrama uyğun olaraq dərs keçirdi. Təcrübəli zabit mövzunu ətraflı izah edib, əsgərlərin suallarını cavablandırdı. Dərs başa çatdıqdan sonra B.Qafarovla həmsöhbət olmaq imkanı qazandım. Zabit bildirdi ki, şəxsi heyətlə mütəmadi "Heydər Əliyev irsini öyrənirik" və ictimai-siyasi hazırlıq məşğələləri keçirilir.

- "Heydər Əliyev irsini öyrənirik" məşğələlərində Ümummilli Liderimizin zəngin həyat yolu və fəaliyyəti proqram xarakterli tövsiyələri təbliğ edilir. İctimai siyasi-hazırlıq dərslərində isə xalqımızın tarixi keçmişinin, İkinci Dünya müharibəsində Vətənimizin qəhrəman övladlarının, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində igidlik göstərmiş Milli Qəhrəmanların həyat və fəaliyyətlərinin öyrənilməsinə geniş yer ayrılır, əsgərlərimizə döyüş ruhu aşılanır, - deyə təcrübəli zabit bildirdi.

- Azərbaycan əsgərinin bu gün döyüş ruhunda formalaşdırılmasında şəxsi heyətlə iş üzrə müavinlərin və psixoloqların üzərinə böyük məsuliyyət düşür, - deyə zabit sözünə davam edir. - Odur ki, əsgərlərimizə şərəfli tariximizdən, torpaq uğrunda canından keçən şəhidlərimizdən danışır, torpaqlarımızı azad edərək tarixə yeni bir şanlı qələbə yazacağımız günün çox yaxın olduğunu bildiririk. Hər bir Azərbaycan əsgərinin döyüş ruhu yüksəkdir. Torpaqlarımızı işğaldan azad etmək üçün ordumuz silah, texnika, döyüş hazırlığı ilə yanaşı, mənəvi-psixoloji cəhətdən də hazırdır.

Ümummilli liderimiz və müasir ordumuzun qurucusu Heydər Əliyevin bir zamanlar qeyd etdiyi kimi, "bu günümüzün gəncləri özlərini xoşbəxt sanmalıdır ki, onlara doğma Vətənimizin ordusunda xidmət etmək nəsib olub." Hər bir Azərbaycan gənci yaxşı başa düşür ki, onun qarşısında dayanan ən mühüm vəzifə düşmən tərəfindən işğal edilmiş 20 faiz torpaqlarımızı son qarışına kimi azad etməkdir. Bundan ötrü isə hər bir döyüşçümüz Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin əmrini gözləyir.

**Baş leytenant**
**Ceyhun CƏFƏRLİ,**
**"Azərbaycan Ordusu",**
**foto**
**C.CƏFƏROVUNDUR**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***20 dekabr 2016-cı il***

Erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 29 dəfə pozub.

İşğal altında olan Tərtər rayonunun Göyarx, Ağdam rayonunun Şuraabad, Yusifcanlı, Sarıcalı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

# İllərini ömür kimi yaşayır...

## Yazıçılar Birliyində şair-publisist polkovnik Abdulla Qurbaninin 60 illik yubileyi qeyd olunub

*Fikirlərin xeyirlidirsə, əməlin xeyirlidirsə, ürəyin deyəni dilin deyirsə, dan yerinin sökülməsini də, yelin əsməsini də, bulaqların zümzüməsini də, qartalın uçuşunu da, dənizin kükrəyişini də, ... xeyirliyə yozursansa, ötüşən aylara-illərə ömür qüdrəti verirsən. Belə ömrün işığı zamanın sərhədlərini aşmağa qadirdi...*





Azərbaycan Yazıçılar Birliyinin "Natəvan" klubunda Əməkdar İncəsənət xadimi polkovnik Abdulla Qurbaninin 60 illik yubileyini bu düşüncələrlə izlədim. Birliyin sədri xalq yazıçısı Anar yubilyarı təbrik edərək bildirdi ki, bugünkü yubiley tədbiri ordu ilə Birlik arasında əməkdaşlığın nümunəsi kimi dəyərlidi. Abdulla Qurbaninin yaradıcılığının başlıca qayəsi vətənpərvərlikdi. Məhz bu amil Birliyin vətənpərvərlik komissiyasının (sədri Şahin Musaoğlu) diqqətini çəkib.

Xalq şairi Fikrət Qoca, akademik Vəli Əliyev, professor Asif Rüstəmli, professor Ənvər Əhməd, millət vəkili Xanhüseyn Kazımlı, general-mayor Yusif Axundzadə, AZƏRTAC-ın baş direktorunun müavini Dağbəyi İsmayılov, "Azərbaycan" jurnalının baş redaktoru İntiqam Qasımzadə, Həmid Cəfərov, polkovnik-leytenant Zöhrab İmamquliyev, Respublika Veteranlar təşkilatının sədr müavini ehtiyatda olan polkovnik Cəlil Xəlilov və başqaları Abdulla Qurbaninin ömür yolundan, çoxşaxəli yaradıcılığından, tükənməz enerjiyə malik olmasından, şəhid ailələrinin onu doğması kimi sevdiyindən,... səmimiyyətlə danışdılar. İştirakçılar bir daha əmin oldular ki, bəzən ömür yaşanılan illərə sığmır...

Tədbirdə deyilən digər mətləblər də (yazdığı əsərlərin ideyası, qayəsi, bədii dəyəri, Silahlı Qüvvələrin şəxsi heyətinin mənəvi hazırlığında özünəməxsus rolu olan kütləvi vətənpərvərlik tədbirlərinin mahiyyəti, əsgərlərə qələbə ruhu aşılayan çıxışları) Abdulla Qurbaninin hansı amallarla yaşadığının təsdiqi kimi anlaşıldı; yaşadığı illəri ömürləşdirməyi bacarır Abdulla Qurbani. Çıxış edənlər bu ömrü işıqlı ömür adlandırdılar...

1956-cı ilin qışı. 13 dekabr. 60 ilin o üzündə qalan 13 dekabr günü nə vaxtdan bəri tarixləşirmiş? Şərur rayonunun Mahmudkənd kəndi bilirdimi ki, bu adi gün illər sonrası çoxlarının ehtiramının ünvanı olacaq? 13 dekabr gününün tarixləşməyə meyilli olduğunu balaca Abdullanın Culfa rayonundakı Əbrəqunus kənd orta-internat məktəbində oxuduğu illərdəmi hiss eləmişdi? Haradansa tapdığı sınıq küp yaradılacaq məktəb muzeyinin ilk eksponatı olandamı duymuşdu? Firuz Mustafanın bu küp haqqında "Sınıq küpün harayı" məqaləsi dərc olunandamı gümanına tapınmışdı? Abdulla Novruz oğlu M.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunu teatrşünas kimi fərqlənmə diplomu ilə bitirəndəmi əmin olmuşdu buna? Duyduqlarının gerçəkləşdiyinə Abdulla Mahmudkənd kənd mədəniyyət evinin direktoru olandamı əmin oldu, mədəniyyət işçilərinin hazırlıq və ixtisasartırma kursunda, Aşıq Ələsgər adına Respublika Xalq yaradıcılığı evində işləyəndəmi sevindi, "Görünən dağa nə bələdçi?" dedi...

İllər ötür, illər keçir, ömürləşən illərin işığı öz tutumu qədər gündüzlər Günün işığına, gecələr Ayın, ulduzların işığına qarışır. Günün də, Ayın, ulduzların da işığı bu bəşəri işığın ağ yoluna, əbədiyyət yoluna dönür...



Mahmudkənd kəndi bilirdimi ki, 13 dekabr gününün ad olduğu ömür yollar yoracaq, Uzaq Şərqin şaxtasını gücü çatdığı qədərincə "yumşaldacaq?" - Abdulla Novruz oğlu hərbi xidmətdəydi, hərbi hissənin azad komsomol komitəsinin katibiydi. 80-ci illərdə rus olmayan əsgərin, baza təhsili milli dillərdən biri olan əsgərin belə vəzifəyə seçilməsini necə möcüzə adlandırmayasan? - komandirlər, zabitlər əsgərin dünyaduyumunu, məntiqli danışığını, təfəkkürünü, təxəyyülünü, hadisələrin mahiyyətləri arasında bağlılıq görmə qabiliyyətini görürsə, dəyərləndirirsə, bunu necə möcüzə adlandıra bilərsən? Bu əsgərin məqalələri, oçerkləri, reportajları (jurnalistika), şeirləri (poeziya) Moskva, Xabarovsk, Ussuriysk, Kişinyov, Vilnüs, ...şəhərlərində nəşr edilən qəzetlərdə, jurnallarda dərc olunursa, bununla necə qürurlanmamaq olar? Baza təhsili Azərbaycan dili olan əsgərin bədii təxəyyülü özünü rus dilində də göstərirsə, buna necə istedad deməyəsən?

Mahmudkənd kəndi də, Şərur rayonu da, Naxçıvan da, Azərbaycan da duyurdu ki, illəri ömür urvatında, ömür kimi yaşayan Abdulla Novruz oğlunun təxəyyülünün, istedadının üfüqləri genişdi. Abdulla Qurbanovun Abdulla Qurbani kimi tanınması bu duyumu şaxələndirirdi; Respublikada teatrlaşdırılmış kütləvi tədbirlər Abdulla Qurbaninin ssenarist, quruluşçu rejissor kimi tanıtdı: "Natəvan qızlar bayramı" (Ağdam), "Qurbani saz bayramı" (Cəbrayıl), "Kəhrəba salxımlı bağlarım mənim" (Zəngilan), "Əmək şöhrəti bayramı" (Beyləqan), "Milli qəhrəmanlar günü", "Yallı bayramı" (Naxçıvan), ... mənəvi dəyəri ilə milli mədəniyyətimizi yaşadıb, mənəvi dəyəri indi də ehtiramlarla xatırlanmaqdadı; o tədbirlərin iştirakçıları indi babadı, nənədi. Nəvələr 30-40 il əvvəlin bu qəbil tədbirlərinin kimin ssenarisiylə, rejissorluğuyla keçirildiyini, mahiyyətinin nə olduğunu, keçirildiyi vaxtla qədim tarixlərin necə səsləşdiyini (səsləşdirildiyini) nənələrin, babaların xatırlamalarından eşidir. Belə tədbirlərin müharibə taleyi yaşayan məmləkətimizdə ayrı formatda davam etdirildiyini görür. Amalı bəşərilik olan bir xalqın yeniyetmələri, gəncləri bu kimi tədbirlərin yaxın vaxtlarda yeni mahiyyətlərlə yenə keçiriləcəyinə inanır. Bunun üçün müharibə başa çatmalıdı, torpaqlarımız işğaldan azad edilməlidi...

1993-cü iliydi. Şərur rayon mədəniyyət şöbəsinin müdiriydi. Qarabağda gedən döyüşlərə seyrçi ola bilmədi Abdulla Qurbani; torpağın göynərtisini ürəyində hiss eləyirdi. Ona elə gəlirdi ki, düşmənin atdığı hər mərmi, hər güllə onun da yaşanılmalı illərini yaralayır...

Şərur rayon tarix-diyarşünaslıq muzeyinin, Cəlilkənd kəndində C.Məmmədquluzadənin memorial muzeyinin, Abasqulu bəy Şadlinskinin xatirə muzeyinin, Zəngilanda Xalqlar Dostluğu muzeyinin yaradıcısı kimi böyük ehtiramlarla əhatələnən Abdulla Qurbani dəfələrlə ümumittifaq və ümumdünya folklor festivallarının laureatı olub, SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin qızıl və gümüş medallarına layiq görülüb, Azərbaycan Respublikası Ali Soveti Rəyasət Heyətinin fəxri fərmanı ilə təltif edilib...

Xalq yazıçısı Mirzə İbrahimov Şərurda ilk məktəb muzeyini yaradan məktəbli Abdullanı "möcüzə", xalq yazıçısı Süleyman Rəhimov gənc Abdullanı "od-alov" adlandırırdı. Mahmudkənd kəndi də, Şərur rayonu da, Naxçıvan da, Azərbaycan da bu kəlmələri bir qədər heyrət, bir qədər qürrə, başlıcası bir ürək sevgi bilirdi...

Teatrşünas Abdulla Qurbani...
Şair Abdulla Qurbani...
Rejissor Abdulla Qurbani...
Publisist Abdulla Qurbani...

Və ən başlıcası, bu adların fövqündə dayanan vətəndaş Abdulla Qurbani!..

Vəzifəsindən imtina elədi Abdulla Qurbani - döyüşlərə getdi, əsgər oldu (indi polkovnikdir, Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsi rəisinin müavinidir, Əməkdar İncəsənət xadimidir, Prezidentin fərdi təqaüdçüsüdür).

İkinci Kəlbəcər əməliyyatında 50 nəfərdən çox şəhidimizi düşmənin nəzarətindən çıxardan, onlarla yaralının həyatını xilas edən, mayor Telman Haqverdiyevin ölümündən sonra natiqliyiylə, məntiqli danışığıyla, duyğusal şeirləriylə, tarixi hadisələri heysiyyətlə xatırlatmaqla taboru dağılmaq təhlükəsindən xilas elədi (deməli, daha böyük itkilərin qarşısı alındı!)...

Onlarla şeirinə mahnı bəstələnib Abdulla Qurbaninin...

Abdulla Qurbaninin "Türk sancağı" tarixi dramı Bakı Bələdiyyə Teatrında, eləcə də Türkiyənin Kars, Ərzurum, Yazqat, Ankara, ... şəhərlərində müvəffəqiyyətlə tamaşaya qoyulub...

Abdulla Qurbani 100-dən çox kitabın müəllifidir...

Ümummilli lider Heydər Əliyev Abdulla Qurbaninin yaradıcılığını həmişə yüksək dəyərləndirirdi, böyük tarixi şəxsiyyət Abdulla Qurbani haqqında deyirdi: "Azərbaycan Silahlı Qüvvələrinin salnaməsini yaradır...".

Abdulla Qurbaninin "Millətin oyaq gecəsi" poeması haqqında xalq şairi Məmməd Araz deyirdi: "Döyüşçü Abdullanın, şair Abdullanın bu poeması, bu harayı, bu əks-sədası, belə bir məqamda Murovdan, Xanlardan, Gəncədən Bakıya gələn yolda, sözün həqiqi mənasında, tüfəngin qundağında yazıldı...".

İllərini ömür kimi yaşayır Abdulla Qurbani. Yaşadığı ömür xalq üçündü, millət üçündü...

Sonda yubilyar Azərbaycan Yazıçılar Birliyinin fəxri fərmanı, Respublika Veteranlar Təşkilatının "General Həzi Aslanov" yubiley medalı ilə təltif olundu...

Tədbir təsdiqlədi ki, söz də müsəlləh əsgərdi. Polkovnik Abdulla Qurbani həm də söz əsgəridi...

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**

# “Lələtəpə əməliyyatı bizim qəhrəmanlıq rəmzimizdir”

## Zərdabda hərbi vətənpərvərlik tədbiri keçirilib

*Zərdab rayon İcra Hakimiyyəti və Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının birgə təşkilatçılığı ilə "Lələtəpə əməliyyatı bizim qəhrəmanlıq rəmzimizdir" devizi altında hərbi vətənpərvərlik tədbiri keçirilib.*






Tədbir iştirakçıları əvvəlcə mütəşəkkil ordumuzun qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək əziz xatirəsini ehtiramla yad ediblər.

Sonra Şəhidlərin xatirə parkı, Sovet İttifaqı Qəhrəmanı Məlik Məhərrəmovun abidəsi, eləcə də aprel döyüşlərində şəhid olmuş zərdablı gizir Nurlan Abdullazadənin Böyük Dəkkə kəndindəki məzarı ziyarət olunub.

Heydər Əliyev Mərkəzində keçirilən hərbi vətənpərvərlik tədbiri Azərbaycanın Dövlət himninin səsləndirilməsi və ölkəmizin ərazi bütövlüyü, müstəqilliyi uğrunda şəhid olanların xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlanıb.

Zərdab rayon İcra Hakimiyyətinin başçısı Lütvəli Babayev çıxış edərək bildirdi ki, milli mətbuatımızın banisi Həsən Bəy Zərdabi kimi böyük mütəfəkkiri dünyaya bəxş edən bu diyarın insanları Vətənə, dövlətə, xalqa, ulu öndər Heydər Əliyevin ideyalarına həmişə sədaqət nümunəsi göstərib və bu gün də öz ənənələrinə sadiqdirlər. Yüzlərlə zərdablı Qafqaz dağlarının ətəklərindən Berlinədək şanlı döyüş yolu keçib, İkinci Dünya müharibəsinin Qələbə tarixinə unudulmaz qəhrəmanlıq səhifələri yazıblar. Sovet İttifaqı Qəhrəmanı Məlik Məhərrəmovun, "Şöhrət" ordeninin hər üç dərəcəsi ilə təltif olunmuş Muradalı Heydərovun adları hərb tarixinə qızıl hərflərlə yazılıb.

Qarabağ uğrunda döyüşlərdə neçə-neçə zərdablı gənc Vətən qarşısında öz övladlıq borcunu şərəflə yerinə yetirib, 130-dan çox həmyerlimiz şəhidlik zirvəsinə ucalıb. Bu gün bütün qoşun növlərində Zərdab rayonunun yetirmələrini görmək olar. Hərb peşəsini seçənlərin, taleyini zabitlik peşəsinə bağlayanların sayı ildən-ilə çoxalır. Son iki-üç il ərzində 1000-ə yaxın zərdablı hərbi xidmətini başa vurduqdan sonra yenidən orduya qayıdıb və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi Silahlı Qüvvələrdə xidmətlərini davam etdirməkdədir.

Gənclərin ata və babalarımızın qəhrəmanlıq ənənələri ruhunda tərbiyə edilməsi, orduya hazırlanması, onlarda vətənpərvərlik hisslərinin yüksəldilməsi rayon rəhbərliyinin fəaliyyətində prioritetdir.

Məlum aprel döyüşlərində Zərdabdan olan onlarla əsgər və zabit də öz igidlikləri, şəxsi şücaət və rəşadətləri ilə həmyerlilərinə başucalığı gətirib.

İcra başçısı bütün xalqımız kimi hər bir zərdablının da hər an Ali Baş Komandanın əmrlərinə hazır olduqlarını bir daha nəzərə çatdırdı.

Ali Baş Komandanın cəbhə bölgələrinə səfərlərini əks etdirən videoçarxın nümayişindən sonra Lələtəpə uğrunda döyüşlərin iştirakçısı, Müdafiə Nazirliyinin zabiti, Əməkdar İncəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani çıxış edərək deyib: "Tədbirə çox gözəl ad seçilib: "Lələtəpə əməliyyatı bizim qəhrəmanlıq rəmzimizdir". Bu dəyərli sözlər Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə məxsusdur. Bu, həqiqətən də belədir. Məhz Azərbaycan Ordusu müdrik və qətiyyətli sərkərdəmizin - Prezident İlham Əliyevin rəhbərliyi altında aprel döyüşlərində qələbə qazandı, düşmənin layiqli dərsini verdi. Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının ərazilərində işğal altında olan 2000 hektardan çox torpaq uğurlu əks-hücum əməliyyatı nəticəsində işğalçılardan azad edildi, minlərlə hektar torpaq Azərbaycan Ordusunun tam nəzarətinə keçdi və uzun illərdən sonra qəhrəman döyüşçülərimiz xalqımıza qələbə sevinci yaşatdı. Ali Baş Komandanımızın da dəfələrlə dediyi kimi, aprel döyüşləri dövlətimizin və ordumuzun gücünü, xalqımızın birliyini, həmrəyliyini və vətənpərvərliyini nümayiş etdirdi".

Polkovnik A.Qurbani Lələtəpə əməliyyatları, zərdablı zabit Elşən Qarayevin həyat yolu, Lələtəpə uğrunda döyüşlərdə xüsusi xidmətləri barədə ətraflı məlumat verdi.

Abdulla Qurbani Zərdabdan olan qəhrəman polkovnik-leytenant Elşən Qarayevi səhnəyə dəvət etdi.

Tədbir iştirakçıları döyüşlərdə sağ ayağını itirmiş və bir neçə yara almış aprel döyüşlərinin qazisini, Lələtəpə fatehlərindən birini ayaq üstə alqışlarla qarşılayıblar. Bəstəkar Azad Zahidin Abdulla Qurbaninin sözlərinə yazdığı "Lələtəpə fatehləri" qəhrəmanlıq odası ifa edildi.

Həmyerlilərini ürəkdən salamlayan, döyüşlər zamanı onlarla maraqlanan, doğmalarına, valideynlərinə daim mənəvi dayaq olan zərdablılara, rayon rəhbərliyinə minnətdarlığını bildirən və ilk aprel gecəsini xatırlayan Elşən Qarayev deyib: "O gecə heç kimdə qorxu hissi deyilən şey yox idi. Məqsədimiz düşmənin silahlı təxribatının qarşısını almaq, onu geri oturtmaq və strateji yüksəkliyi ələ keçirmək idi. Bilirdik ki, ölsək, yaralansaq, xalqımız bizi yaşadacaq, xatirəmizi əziz tutacaq, adımızı əbədiləşdirəcək, ailəmizi diqqət və qayğı ilə əhatə edəcək. Təki Vətən sağ olsun!"

Aprel döyüşlərində göstərdiyi şəxsi şücaət və rəşadətə görə Prezidentin sərəncamı ilə "Vətən uğrunda" medalına təltif olunmuş E.Qarayev həmin döyüşləri xatırladı. O, Qarabağ uğrunda döyüşlər başlayacağı təqdirdə yenə də cəbhədə, qəhrəman döyüşçülərin sıralarında olacağına söz verdi.



Vaxtilə igid zabitə dərs demiş Zərdab şəhər 3 nömrəli tam orta məktəbinin müəllimi Solmaz Məmmədova, sinif yoldaşı Natiq Mehrəliyev, Qarabağ Müharibəsi Veteranları, Əlilləri və Şəhid Ailələri İctimai Birliyinin Zərdab rayon şöbəsinin sədri Neman Yediyarov çıxış edərək Elşənin və aprel döyüşlərinin bütün iştirakçılarının qəhrəmanlıqlarından qürur duyduqlarını bildirdilər.

Respublika Veteranları Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov tədbir iştirakçılarını ölkənin veteranlar ordusu adından salamladı və bir neçə gün öncə cəbhə bölgələrinə səfərlərinin təəssüratlarını danışdı. Qeyd etdi ki, bu gün Azərbaycan Ordusu nəinki regionun, hətta dünyanın ən güclü orduları sırasındadır. Bütün hərbi hissələrdə, eləcə də cəbhə bölgələrində əsgəri xidmət üçün hər cür şərait yaradılıb, hərbçilərin döyüş ruhu, vətənpərvərlik hissi çox yüksəkdir. Prezident, Ali Baş Komandan İlham Əliyevin cəbhə bölgələrinə səfərləri, hərbçilər qarşısında proqram əhəmiyyətli çıxışları, döyüşlərdə fərqlənmiş bir qrup hərbi qulluqçunu qiymətli hədiyyələrlə mükafatlandırması ön səngərlərdəki əsgərlərin qələbə əzmini daha da artırıb və onlar istənilən anda aprel döyüşlərində qazanılan qələbəni təkrarlamağa hazırdırlar.

Lələtəpə uğrunda döyüşlərin fəal iştirakçılarından olan polkovnik-leytenant Elşən Qarayevə və aprel döyüşləri zamanı şəhidlik zirvəsinə ucalmış gizir Nurlan Abdullazadənin ailəsinə Respublika Veteranları Təşkilatının yubiley medalları təqdim edildi. Eyni zamanda, Zərdab rayon İcra Hakimiyyətinin rəhbərliyinə rayonda vətənpərvərlik işinin təşkilində xidmətlərinə görə həmin təşkilatın xüsusi mükafatları verildi.

"Lələtəpə əməliyyatı bizim qəhrəmanlıq rəmzimizdir" devizi altında keçirilən hərbi vətənpərvərlik tədbirinin sonunda Zərdab rayon İcra Hakimiyyətinin başçısı Lütvəli Babayev müharibə şəraitində olan bir məmləkətdə belə hərbi vətənpərvərlik tədbirlərinə böyük ehtiyac olduğunu, bu istiqamətdə bundan sonra da yeniyeni tədbirlərin təşkil ediləcəyinə əminliyini bildirdi. Bütün xalqımız kimi zərdablıların da Ali Baş Komandanın əmrlərinə hər an müntəzir olduğunu söylədi.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Ordu ilə sıx təmas şəraitində

## Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin plenumundan qeydlər

*Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsi üçün başa çatmaqda olan 2016-cı il bir sıra maraqlı hadisə və tədbirlərlə yadda qaldı. Bu barədə təşkilatın VI plenumunda ətraflı söhbət getdi. Həzi Aslanov adına Mərkəzi Zabitlər Evində keçirilən tədbirə həmkarların üzvlərilə yanaşı, Müdafiə, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliklərinin, Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqları Respublika Komitəsinin nümayəndələri də qatılmışdılar.*



Öncə ümummilli lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərimizin, həmçinin BHİK-nin dünyasını dəyişmiş üzvlərinin xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Komitənin sədri Abiyat Ağadadaşova hesabat məruzəsində il ərzində görülən işlərdən danışdı. 2016-cı ildə dünyanın müxtəlif bölgələrində müharibələrin, silahlı toqquşmaların getdiyinə, iqtisadi böhranın daha da dərinləşdiyinə diqqəti çəkən təşkilat rəhbəri qeyd etdi ki, buna baxmayaraq Azərbaycan inamla inkişaf edir, gündən-günə güclənir və ölkəmizdə təhlükəsizlik yüksək səviyyədə qorunur.

Digər sahələrdə olduğu kimi, ordu quruculuğunda da islahatların davam etdirildiyini və Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin bu sahəyə daim diqqət yetirdiyini bildirən natiqə görə, Silahlı Qüvvələrin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində mühüm işlər görülüb. "Bunu 2016-cı ilin aprelində baş vermiş döyüşlər də sübut etdi. Ermənistan ordusunun təxribatlarına cavab olaraq təmas xəttində bölmələrimiz düşmənə güclü zərbələr endirərək Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğal altında olan ərazilərinə məxsus 2 min hektardan çox ərazini uğurlu əks-hücum əməliyyatı nəticəsində işğalçılardan azad edib. Həmin ərazilər bu gün Azərbaycan Ordusunun tam nəzarətindədir."

Aprel döyüşlərində də Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin kollektivi ordumuzun yanında olub, düşməndən azad edilmiş yüksəkliklərə gedərək əməliyyat iştirakçıları ilə görüşlər keçirib və onlara mənəvi dəstək olmağa çalışıb. Azərbaycan bayrağı, nəfis tərtibatda çap edilmiş "Qurani-Kərim"in yeni nüsxələri, çoxsaylı hədiyyələr və Azərbaycanın dadlı nemətlərindən ibarət sovqat komitə üzvləri tərəfindən cəsur Vətən oğullarına çatdırılıb. Təşkilatın nümayəndələri mayın 4-də isə Baş Klinik Hospitalın Qan Bankında könüllü qanbağışlama aksiyası keçiriblər. Həmçinin hospitallarda müalicə olunan zabit və əsgərlərimizi ziyarət edib, şəhidlərimizin dəfn mərasimlərinə qatılıblar.

Abiyat xanım qeyd etdi ki, komitənin əsas vəzifəsi ittifaq üzvlərinin sosial-iqtisadi mənafelərini və qanuni hüquqlarını müdafiə etmək, yeni təşkilatlar yaratmaq, kollektiv müqavilələrin vaxtında bağlanmasına və onun müddəalarının yerinə yetirilməsinə ciddi nəzarət etmək, əmək haqqının vaxtında ödənilməsinə nail olmaq, əməyin mühafizəsi, üzvləri təhlükəsiz iş yeri ilə təmin etmək, sağlamlıqlarının qayğısına qalmaq, onları maarifləndirmək və asudə vaxtlarını səmərəli təşkil etməkdən ibarətdir.



Hesabat dövründə BHİK-nin üzvlərinin sayı artaraq 13106 nəfərdən 14216 nəfərə yüksəlib.

Ötən il ərzində komitənin dörd yeni təşkilatı yaradılıb, yeni üzvlər həmkarların sıralarına qoşulub.

Ötən dövr ərzində Rəyasət Heyəti tərəfindən həyata keçirilən tədbirlərdə həmkarların fəaliyyətinə dair mühüm qərarlar qəbul edilib, ortaya çıxan problemlər öz həllini tapıb. İşəgötürənlə təşkilat arasında bağlanmış kollektiv müqaviləni komitə sədri əmək kollektivlərinin əlində mühüm vasitə kimi dəyərləndirdi. "İşçilərlə müqavilə bağlanarkən öhdəliklərin yerinə yetirilməsi BHİK tərəfindən daim nəzarətdə saxlanır. Komitənin tərkibində olan 77 təşkilatdan 65-də kollektiv müqavilə imzalanıb, 12 təşkilatda isə bu zəmində işlər aparılır."

Həmkarlar ittifaqı üzvlərinin sağlamlığının mühafizəsinə toxunan komitə sədri bildirdi ki, il ərzində Dövlət Sosial Müdafiə Fondu hesabına 44 nəfərə sanator kurort yollayışı, 66 nəfərə isə büdcə hesabına ailəvi istirahət evlərinə və turist bazalarına yollayışlar verilib. Eyni zamanda ilk həmkarlar təşkilatlarının sifarişləri əsasında 500 nəfərdən artıq işçinin ölkəmizin müxtəlif istirahət guşələrinə kütləvi gəzintiləri təşkil edilib.

9 May Qələbə Günü münasibətilə İkinci Dünya müharibəsi veteranları ilə bayram süfrəsi arxasında görüşlər keçirilib və onlara pul mükafatları təqdim olunub.

BHİK öz üzvlərinin maarifləndirilməsi, sosial hüquqları ilə bağlı biliklərinin artırılması məqsədilə müxtəlif seminarlar təşkil edib. Həmçinin Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasında təşkil olunan kurslarda həmkarlar təşkilatlarının sədrləri və üzvləri təcrübə qazanmışlar. Ümumiyyətlə, sədrin sözlərinə görə, BHİK öz vəzifələrini yüksək səviyyədə yerinə yetirmək üçün, AHİK-in, DİİXİHİ RK-nin həmişə dəstəyini hiss edib, maddi və hüquqi yardımından yararlanıb.

İttifaq üzvlərinin asudə vaxtının səmərəli təşkilinə yetərincə diqqət ayıran komitə il ərzində idmanın müxtəlif növləri üzrə yarışlar keçirib, qaliblərə fəxri fərman, pul mükafatı və qiymətli hədiyyələr verilib. Bir sözlə, il ərzində BHİK tərəfindən üzvlərin sosial müdafiəsi məqsədilə çoxsaylı tədbirlər həyata keçirilib.

Qarşıda duran vəzifələrə toxunan A.Ağadadaşova plenum iştirakçılarının diqqətinə çatdırdı ki, 2017-ci il təşkilat üçün hesabat-seçki ilidir və gələn ilin mayında BHİK-də hesabat-seçki konfransı keçiriləcək.

2017-ci il həm də onunla əlamətdar olacaq ki, martda komitənin 50 illik yubileyinin qeyd edilməsi qərara alınıb.

Çıxışının sonunda komitə sədri vurğuladı ki, komitənin kollektivi ümummilli lider Heydər Əliyevin ideyalarına sadiq qalaraq və Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin apardığı siyasəti dəstəkləyərək, xalq ilə ordu birliyinin möhkəmləndirilməsinə bundan sonra da öz töhfəsini verəcək.

Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin zabiti polkovnik Rauf Dəmirov məruzə ətrafında çıxış edərək BHİK-nin hesabat dövründə fəaliyyətini, həmkarların ordu hissələrilə sıx təmas şəraitində fəaliyyət göstərməsini yüksək qiymətləndirdi. "Aprel döyüşlərindən sonra komitə rəhbərliyi və üzvlərinin düşmənlə təmas xəttində zabit və əsgərlərlə görüşərək onlara mənəvi dəstək olması razılıq hissi doğurub. Xalqın dəstəyini hiss edən Azərbaycan Ordusu isə basılmazdır."

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin sektor müdiri Əbülfət Məhərrəmov qeyd etdi ki, bu təşkilatın fəaliyyətilə yaxından tanışdır. "Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin möhtəşəm bir qurum olduğunu Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasında dəfələrlə vurğulamışam. İllər ötdükcə komitənin fəaliyyəti daha mütəşəkkil xarakter alır. Kollektiv müqavilələrin bağlanması və həmkarlar təşkilatının hərbi hissələrdə komandanlıqla işgüzar münasibətlərin qurulmasına üstünlük verməsi komitənin fəaliyyəti üçün çox önəmlidir. Sevindirici haldır ki, Müdafiə Nazirliyi sistemində Birləşmiş Həmkarlar İttifaqı Komitəsi kimi mütəşəkkil bir həmkarlar təşkilatı var."

Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsi sədrinin birinci müavini Aida Əliyeva bildirdi ki, DİİXİHİ Respublika Komitəsi Rəyasət Heyətinin üzvü, Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədri Abiyat Ağadadaşova fəal təşkilat rəhbərlərindəndir. "Komitənin 17 təşkilatında yoxlamalar keçirilib, hər şey qaydasında olub, çox cüzi nöqsanlar tapılıb. Mart ayında komitənin 50 illiyi qeyd olunacaq. Ötən müddət ərzində təşkilat çox böyük təcrübə qazanıb, özünəməxsus işgüzar ənənələri formalaşıb."

Sonda məruzə ilə əlaqədar çıxış və diskussiyalarda il ərzində görülmüş işlər və qarşıda duran vəzifələr geniş təhlil edildi.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu",**
**fotolar müəllifindir**

*Medallı igidlərimiz*

# Şəhid heykəltəraş anıldı



***Bu yaxınlarda Xalq Bankın təşkilatçılığı ilə "Xalq Əmanəti" layihəsi çərçivəsində aprelin əvvəllərində torpaqlarımız uğrunda döyüşlərdə şəhid olmuş heykəltəraş Samir Kaçayevin əsərlərindən ibarət sərgi keçirildi. Sərgidə gənc sənətkarın həyat və yaradıcılığına həsr olunmuş bədii albomun təqdimat mərasimi oldu.***

Tədbiri giriş sözü ilə açan millət vəkili Rəfael Hüseynov şəhidin 22 illik qısa ömür yolundan danışdı.

- Əziz Samir, bu gün sənin bayramındı. Həm yaradıcılıq nöqteyi-nəzərindən, həm də insanlıq baxımından zirvədə dayanan bir gənc olmusan. İnanıram ki, Samir yaşasaydı, Azərbaycanın məşhur heykəltəraşlarından biri olacaqdı. Çünki sübut hər birimizin gözü qarşısındadı. Hər bir Azərbaycan vətəndaşı kimi məndə də qətiyyən şübhə yoxdur ki, işğal altında olan torpaqlarımız azad olunacaq və qəsb edilmiş şəhər və qəsəbələrimiz bərpa olunacaq. Sənin kimi torpaqlarımızın bütövlüyü uğrunda həlak olmuş oğullarımızın əziz xatirəsi daim qəlbimizdə yaşayacaq.

Çıxışının sonunda şəhidimizin valideynlərinə minnətdarlığını bildirən millət vəkili övlad itkisini mərdliklə, dəyanətlə qarşıladıqlarına görə onları da qəhrəman adlandırdı.

Xalq rəssamı, Rəssamlıq Akademiyasının rektoru Ömər Eldarov Samir Kaçayevi belə xatırladı: "Samir təhsil ocağımızın ən nümunəvi tələbəsi, məharətli heykəltəraş idi. Onun işlərində fərqlilik və mükəmməllik var idi. Sənəti dərinliklərinə qədər mənimsəməyə çalışırdı. Nəzəri və praktiki cəhətdən də kamil və mükəmməl idi. Onun qismində Azərbaycan istedadlı bir heykəltəraşını itirdi".

Azərbaycan Rəssamlıq Akademiyasının professoru, əməkdar incəsənət xadimi Akif Əsgərov Samir haqqında danışmağın ona çox çətin, ağrılı gəldiyini bildirdi. Samirin bacarıqlı, vətənpərvər və tərbiyəli olduğunu bildirən Akif müəllim indiki gənclərə onun kimi yaşamağı tövsiyə etdi. - Onun əsərləri ayrı-ayrılıqda böyük sənət əsəridir, - deyə natiq çıxışına davam etdi. - Ən əsası onun böyük ürəyi, gözəl hissiyyatı var idi. Hər əsəri bir yenilik, bir kəşfdir.

Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin zabiti polkovnik-leytenant Faiq Qəribov Samir Kaçayevin valideynlərini əvvəlcədən tanıdığını, şəhidimizlə ölümündən qabaq əlaqə saxladığını sərgi iştirakçılarının nəzərinə çatdırdı.

- Samir təvazökar insan olmaqla yanaşı, həm də bir qəhrəman idi, - deyə polkovnik-leytenant bildirdi. - Bu qəhrəmanlıq Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev tərəfindən yüksək qiymətləndirilib və Samir "İgidliyə görə" medalı ilə təltif edilib.



Zabit çıxışında Azərbaycan Silahlı Qüvvələrində quruculuq prosesinin davam etdiyini və ordunun yüksək inkişaf dövrü yaşadığını, ölkəmizin ərazi bütövlüyünü təmin etməyə qadir olduğunu sərgi iştirakçılarının diqqətinə çatdırdı.

Tələbə yoldaşı Zamiq Rzayev və döyüşçü yoldaşı Müşfiq Bayramov çıxışlarında Samirin yüksək insani keyfiyyətlərə malik olduğunu bildirdilər. Həmçinin qeyd etdilər ki, onun dostlarına səmimi münasibəti, yoldaşlarının hansısa bir ehtiyacını hiss edəndə əlindən gələni əsirgəməməsi yaddan çıxmaz xüsusiyyətlərindəndir. Bütün bu xüsusiyyətlər ona dostları tərəfindən böyük rəğbətin yaranmasına səbəb olurdu.

Tədbirin sonunda gənc sənətkarın 50-dən çox heykəltəraşlıq və qrafika işinin daxil edildiyi, layihənin sayca 14-cü nəşri olan "Heykəltəraşlıq" albomu sərgi iştirakçılarına hədiyyə edildi. Sonra sərgiyə baxış keçirildi. Şəhid heykəltəraşın yaratdığı əsərlər hər kəsdə böyük maraq doğurdu. Onun əsərlərinə baxdıqda Vətənimizin, xalqımızın milli dəyərlərinin əhatəli şəkildə əks etdirildiyini görmək mümkündür.

**Kapitan
Məhəmməd ƏLİYEV,
"Azərbaycan Ordusu"**

# Şəhid Rüstəm Əhmədovun medalı valideynlərinə təqdim olunub



Aprel döyüşlərində şəhid olan Azərbaycan Ordusunun hərbçisi, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçu, kiçik çavuş, 1983-cü il təvəllüdlü Əhmədov Rüstəm Oruc oğlu ölümündən sonra "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalı ilə təltif olunub.

AZƏRTAC xəbər verir ki, Mingəçevir şəhərindəki Şəhidlər xiyabanında dəfn edilən Rüstəm Əhmədovun təltif olunduğu medal şəhərdəki Heydər Əliyev Mərkəzində ailə üzvlərinə təqdim edilib.

Mərasimdə Müdafiə Nazirliyinin nümayəndələri, Mingəçevir şəhər İcra Hakimiyyətinin kollektivi, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Mingəçevir şəhər şöbəsinin, hüquq-mühafizə orqanlarının əməkdaşları, şəhidin xidmət etdiyi hərbi hissənin rəhbər şəxsləri və ictimaiyyət nümayəndələri iştirak edib, qəhrəman hərbçinin ruhuna dualar oxuyaraq, ona Allahdan rəhmət diləyiblər.

Çıxış edənlər bildiriblər ki, işğal altındakı torpaqlarımız Silahlı Qüvvələrimiz tərəfindən tezliklə azad olunacaq və şəhidlərimizin ruhu o zaman rahatlıq tapacaq.

Mərasimdə şəhidin hərbçi yoldaşları Rüstəm Əhmədovun aprel döyüşlərində göstərdiyi qəhrəmanlığından söz açıblar.

Görüşdə Azərbaycan Ordusunun cəbhədəki uğurlarından danışılıb, şəhidlərin qanının yerdə qalmayacağına və işğal altındakı torpaqlarımızın tezliklə azad olunacağına inam ifadə edilib.

Rüstəm Əhmədovun ölümündən sonra "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalı valideynlərinə təqdim olunub.

Qeyd edək ki, Rüstəm Əhmədov aprelin 14-də cəbhənin Tərtər-Ağdərə istiqamətində, Azərbaycan-Ermənistan qoşunlarının təmas xəttində düşmənin növbəti təxribatı zamanı açılan atəş nəticəsində şəhid olub.

# Xəbərlər:

## hadisələr, faktlar

### Türkiyədə milyonlarla insan küçə və meydanlarda terrora qarşı etiraz yürüş-mitinqləri keçirib



Dekabrın 18-də Türkiyənin böyük şəhərlərində, o cümlədən Şırnak, Antalya, Diyarbakır və Yüksekovada Kürd Fəhlə Partiyası (PKK) terrorçu təşkilatının ölkədə törətdiyi qanlı terror aktlarına etiraz olaraq yürüş-mitinqlər keçirilib. Küçə və meydanlara çıxan milyonlarla dinc sakin terror əleyhinə şüarlar səsləndirib. "Vətən sənə canım fəda", "Rədd olsun PKK", "Şəhidlər ölməz, Vətən bölünməz", "Türk və kürd qardaşdır, PKK şərəfsiz" kimi şüarlarla saatlarla küçələrdə yürüş edən insanlar hökumətdən terrorçulara qarşı daha kəskin mübarizə aparmağı tələb ediblər.

### Rusiyanın Türkiyədəki səfirinə hücum edən şəxs öldürülüb



Rusiyanın Türkiyədəki səfiri Andrey Karlova Ankarada silahlı hücum edən şəxs polislə atışmada öldürülüb.

Bu barədə Türkiyə KİV-ləri məlumat yayıb.

Xatırladaq ki, Andrey Karlov Rusiyanın Türkiyədəki səfirliyinin və Ankaranın Çankaya rayon bələdiyyəsinin birgə təşkil etdiyi sərgidə çıxış edərkən hücuma məruz qalıb və ağır yaralanıb.

Türkiyə Radio-Televiziya Baş idarəsi hadisə ilə bağlı xəbərlərin yayılmasına məhdudiyyət qoyub.

### Gürcüstan dəmir yolunda qatar yanıb



Gürcüstanda Kutaisidən Batumiyə gedən elektrik qatarında yanğın baş verib.

"Gürcüstan Dəmir Yolları" QSC-dən bildiriblər ki, dekabrın 18-də günorta saatlarında Kutaisidən Batumiyə gedən 682 nömrəli elektrik qatarında yanğın olub. Hadisə Xedcaliya kəndi ərazisində baş verib. Qatarın vaqonlarından biri alovlanıb. Qatar heyətinin və yaxınlıqda olan kənd əhalisinin vaxtında müdaxiləsi nəticəsində sərnişinlər təxliyə olunub, alov söndürülüb. Hadisə nəticəsində ciddi xəsarət alan olmayıb.

Görülmüş operativ tədbirlər nəticəsində dəmir yolunda qatarların hərəkəti bərpa olunub.

### Yakutiyada təyyarə qəzası zamanı 16 nəfər xəsarət alıb



Rusiyanın Yakutiya vilayətində İL-18 hərbi təyyarəsinin qəza enişi etməsi nəticəsində 16 nəfər yaralanıb. Təyyarə Yakutiya Mərkəzi Hərbi Dairəsinə məxsusdur.

Rusiya Müdafiə Nazirliyinin məlumatına görə, Kansk aerodromuna uçan və göyərtəsində 32 sərnişin, 7 heyət üzvü olan İL-18 təyyarəsi Yakutiyanın Tiksi qəsəbəsi yaxınlığında qəzaya uğrayıb. On altı nəferin ağır yaralandığı bildirilir. Hadisə yerində xilasedicilər və helikopterlər işləyir.

### Yəməndə terror aktı: 43 hərbçi həlak olub



Yəmənin Ədən şəhərində terrorçu-kamikadze partlayış törədib.

Terror aktı nəticəsində ölən hərbçilərin sayı 43-ə çatıb, onlarla insan isə yaralanıb.

**AZƏRTAC-ın materialları əsasında**

# Müdafiə Sənayesi Nazirliyinin müəssisələrində 1160 adda məhsul istehsal edilir

*Müdafiə Sənayesi Nazirliyi (MSN) yarandığı gündən onun inkişaf strategiyası və proqramı Prezident İlham Əliyevin tövsiyələri və tapşırıqları əsasında tərtib olunub. Bunun nəticəsində ötən müddətdə nazirlik böyük uğurlar əldə edib. Hazırda MSN-in tərkibində 28 hərbi zavod fəaliyyət göstərir. Həmin zavodlarda bu günədək 1160 adda müdafiə təyinatlı məhsullar istehsal edilib.*

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycanın Müdafiə Sənayesi naziri Yavər Camalov dekabrın 17-də jurnalistlərə müsahibəsində deyib.

Yavər Camalov bildirib ki, bu ilin dövlət sifarişi proqramı artıqlaması ilə yerinə yetirilib. Ötən ilin müvafiq dövrü ilə müqayisədə cari ildə nazirliyin güc qurumlarına təhvil verdiyi müdafiə sənayesi məhsullarının həcmi 1,6, çeşidlərinin sayı 1,8 dəfə artıb.

"2009-cu ildən başlayaraq, MSN beynəlxalq müdafiə sərgilərində iştirak edir. Bu günədək 32 beynəlxalq sərgidə iştirak etmişik. Bunun nəticəsində Azərbaycanın Müdafiə Sənayesi Nazirliyi dünyanın bir sıra ölkələri - ABŞ-a, Afrika qitəsi ölkələrinə, Koreya Respublikasına və digər dövlətlərə müdafiə sənayesi məhsullarının ixracına başlayıb. Bu, onu göstərir ki, Azərbaycanda istehsal olunan müdafiə sənayesi məhsulları beynəlxalq standartlara cavab verir", - deyə nazir qeyd edib.

Bildirilib ki, silah istehsalı ilə əlaqədar bir sıra layihələrin reallaşdırılması istiqamətində dünyanın aparıcı ölkələrinin şirkətləri ilə danışıqlar aparılıb və ilkin razılıqlar əldə olunub. Gələcəkdə uzaqmənzilli "Hava-hava", "Hava-yer" tipli raketlərin istehsalı planlaşdırılır. Bundan əlavə, nazirlik elektromaqnit impulslu silahların istehsalına başlayıb. Bu silahların tətbiqi nəticəsində iki kilometr radiusda düşmənin bütün hərbi texnikası və radioelektron qurğuları sıradan çıxacaq.

"Bu il üçün müdafiə təyinatlı məhsulların satışı ilə bağlı ümumi dəyəri 110 milyon dollar olan müqavilələr imzalanıb. Bu müqavilələrdən bəziləri icra olunmaqdadır. Müəyyən məsələlər həllini tapdıqdan sonra bağladığımız müqavilələr tam icra olunacaq", - deyə Y.Camalov vurğulayıb.




# Vətən sizə oğul deyəcək!

*Azərbaycan əsgəri nizamnamələrin tələblərinə, günün nizam qaydalarına müvafiq xidmət edir. Yüksək döyüş hazırlığına malik olması üçün bütün tapşırıqları məsuliyyətlə, vaxtında yerinə yetirir. Döyüş hazırlığını mənəvi hazırlığı tamamlayır; Azərbaycan əsgəri olmasından qürurlanır.*

Əsgər asudə vaxtını müxtəlif formalarla keçirir. Bu, maraqdan, həvəsdən asılıdır. Hərbi xidmət əsgərlərin dostluq duyğularını da formalaşdırır. Xidmət dövründə xarakter yaxınlığı, bu və ya digər hadisəyə, fakta eyni baxışlar, maraq eyniliyi və s. əsgərlərin münasibətini dostluğa çevirmə gücündədir.

Əsgərlər nədən danışırlar? - Vətəndən danışırlar, torpaqlarımızın işğaldan azad ediləcəyi günü əsgər olaraq yaşamaq istədiklərini deyirlər, könül söhbəti eləyirlər, duyğularını titrədən əsərlərdən, şeirlərdən söz açırlar. Nədən danışırlar danışsınlar, nəyi, nələri xatırlayırlar, xatırlasınlar, söhbətin ümumi ahəngi Vətənlə bağlı olur...

Əsgərlər asudə vaxtlarında aprel döyüşlərindənmi danışırlar? - o döyüşlərdə iştirak edənlərə həsəd apardıqlarını gizlətmədən nələri xatırlayırlar?

Hərbi hissədə yaradılmış şəraiti hansı kəlmələrlə ifadə edirlər görəsən? Görəsən, asudə vaxtın bu məqamını yaddaşlarına hansı həvəslə, hansı maraqla yazırlar?..

Əsgərlər nədən danışır? - son vaxtlar həyata keçirilən islahatlardan, islahatların nəticəsi kimi yaradılan şəraitdən, belə şəraitə görə daha məsuliyyətlə xidmət eləmə zərurətindən...

Hər biriniin baxışında doğma bir istək duyulur. Bu istəyin adı torpaqdı; əsgər söhbət eləyəndə də əlləri torpaqla təmasa meyillidi; əsgər torpağın hərarətini hiss etmək istəyir. Bu hərarət onun Vətən sevgisinin can ortağıdı. Əsgər torpağımızı sevir, torpağımızı - Vətənimizi qoruyur...

"N" hərbi hissəsində xidmət edən əsgərlər - Kamran Əli, Səidnuri Rzazadə, Xəyal Abbaslı nədən danışırlar? - hərbi xidmətdən sonra mülki həyatda da əsgəri məsuliyyətlə yaşayacağındanmı, son nəfəsəcən Vətənə əsgər olacağındanmı, onları əvəzləyəcək oğullara bir mətləb çatdırmaq həvəsindənmi: Sevin Vətəni, sevə-sevə qoruduğumuz, qoruya-qoruya sevdiyimiz Vətənin göylərində yad buludlar dolaşmasın! Onda Vətən sizə də oğul deyəcək!..

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu",**
**foto**
**Coşqun CƏFƏROVUNDUR**

# Kursantlar dahi bəstəkarı yad ediblər



*Naxçıvan Qarnizonunun Zabitlər Evində Heydər Əliyev adına Hərbi Liseyin təşkilatçılığı ilə dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin yaradıcılığına həsr edilmiş bədii-musiqili gecə keçirilib.*

Tədbirə Azərbaycan Respublikasının Dövlət himninin səsləndirilməsi ilə başlanılıb. Heydər Əliyev adına Hərbi Liseyin zabiti Cabbar İbrahimov çıxışında bəstəkarın həyat və fəaliyyətindən, Azərbaycan musiqisinin inkişafındakı müstəsna xidmətlərindən danışıb. "Leyli və Məcnun" operası ilə bütün Şərqdə yeniliyə imza atan bəstəkarımız, həm də sözləri Əhməd Cavada məxsus olan Dövlət himnimizin musiqisini bəstələyib. Onun vətənpərvərliyi gənclərimiz üçün nümunədir. Dahi Azərbaycan bəstəkarı, dramaturqu, jurnalisti, pedaqoqu, ictimai xadimi Üzeyir bəy Əbdülhüseyn oğlu Hacıbəylinin doğum günü Azərbaycanda Milli Musiqi Günü kimi qeyd olunur. Bu da dövlətimizin və xalqımızın vətənpərvər övladına olan diqqətinin əyani göstəricisidir", - deyə zabit bildirib.

Bəstəkarın həyat və yaradıcılığına həsr olunmuş videoçarxa baxış olub. Kursantlar Üzeyir Hacıbəylinin "Leyli və Məcnun", "Koroğlu", "O olmasın, bu olsun" və digər əsərlərindən səhnəciklər canlandırıblar.



Tədbirdə kursantlardan Pərviz Nuriyev, Turxan Allahverdiyev, Tofiq Ağayev, Osman Abdullayev, Eldəniz Nağıyev, Samir Fərəczadə, Elvin Məmmədov, Rahim Ramazanov, Mehran Tarverdiyev, Qüdrət Novruzlu, Həsənqulu Mikayılov, Hüseyn Rəhimli, Reydulla Qəmbərov, Fərhad Əliyev, Elşad Məmmədov, Yaşar İmanov, Baxış Vəliyev, Hüseyn Səlimov, Nurxan Əliyev fəallıqları ilə seçiliblər. Həmçinin təşkilati işlərdə Hərbi liseyin müəllimlərindən Günay Mustafayeva və kitabxana müdiri Nazənin Həsənova fəallıq göstəriblər.

Təbii ki, kursantların Vətənə, xalqa məhəbbət, Azərbaycan dövlətinə sədaqət ruhunda tərbiyəsinə xidmət edən bu kimi tədbirlərin keçirilməsi gələcəyin zabitlərində böyük ruh yüksəkliyi yaradır. Nəticədə gənclərimiz mənsub olduqları xalqla fəxr edir, milli-mənəvi dəyərlərimizə sədaqət ruhunda yetişirlər.

**Nəriman NƏCƏFOV,**
**"Azərbaycan Ordusu"**

| Məsul katib | Telefonlar | Ünvanımız | Növbətçi | Qəzetin hesabı | | |
|---|---|---|---|---|---|---|
| polkovnik-leytenant İlham BEHBUDOV | Baş redaktor: (012) 510-71-97 (faks); Baş redaktorun müavini: (012) 510-64-27; Məsul katib: (012) 510-71-98 Məktublar şöbəsi: (012) 510-64-28; | Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | baş leytenant Ceyhun CƏFƏRLİ | Nərimanov Rayon Xəzinədarlığı Kod: 200189 VÖEN: 1500428611 | Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır. Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz. | Lisenziya № 361 Sifariş № 595 Nüsxə 4650 |